AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

Ə M R

№ 64

Bakı şəhəri "03" iyul 2014-cü il

**"Vərəmli xəstələrin müalicəsinin təkmilləşdirilməsi barədə"**

Ağır vərəm formaları olan, xüsusən çox dərmanlara davamlı vərəm xəstələrinin müalicəsinin təkmilləşdirilməsi, həmçinin tam dərmanlara davamlı xəstələrin müalicəsinin aparılması və onlara sosial xidmət göstərilməsi məqsədi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin 14.3-cü bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin 26 may 2014-cü il tarixli 140120203765 nömrəli məktubunu nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Bakı şəhər Baş Səhiyyə İdarəsinin 1 nömrəli Vərəm Sanatoriyasının adı dəyişdirilərək Bakı şəhər Baş Səhiyyə İdarəsinin 8 nömrəli Xüsusiləşdirilmiş Vərəm Xəstəxanası adlandırılsın və bu xəstəxanada çox dərmanlara davamlı BK mənfi xəstələrin müalicəsi təşkil edilsin.

2. Bakı şəhər Baş Səhiyyə İdarəsinin 2 nömrəli Vərəm Sanatoriyasının adı dəyişdirilərək Bakı şəhər Baş Səhiyyə İdarəsinin 9 nömrəli Xüsusiləşdirilmiş Vərəm Xəstəxanası adlandırılsın və bu xəstəxanada tam dərmanlara davamlı xəstələrin müalicəsi və onlara sosial xidmət göstərilməsi təşkil edilsin.

3. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın:

3.1. 8 və 9 nömrəli xüsusiləşdirilmiş vərəm xəstəxanaları haqqında əsasnamələr və ştat cədvəlləri hazırlanaraq təsdiq edilsin;

3.2. aparılan dəyişikliklərlə bağlı əmək qanunvericiliyinə uyğun olaraq müəssisələrdə kadr sənədləşməsi aparılsın.

4. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın:

4.1. adları dəyişdirilmiş tibb müəssisələrinin maliyyə göstəricilərinə zəruri düzəlişlər edilsin;

4.2. bu əmrdən irəli gələn digər məsələlər həll edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**